Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-2047/2019 18.02.2019

**ALİ MƏHKƏMƏ**

**İş № 2(102)-2047/2019**

**Q Ə R A R D A D**

**Kassasiya şikayətinin icraata qəbul edilməsindən imtina haqqında**

**« 18» fevral 2019-cu il Bakı şəhəri**

Mən, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Xələfov Cavabdeh kassasiya şikayətini nəzərdən keçirərək,

**M Ü Ə Y Y Ə N E T D İ M:**

Bakı Apellyasiya Məhkəməsi MK-nın 2(103)-10772/2018 saylı 26 sentyabr 2018-ci il tarixli qətnaməsindən Cavabdeh kassasiya şikayəti vermişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin405.0.1-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən kassasiya şikayəti qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində verilə bilər.

Hazırki işdən görünür ki, Bakı Apellyasiya Məhkəməsi tərəfindən qətnamə 26 sentyabr 2018-ci il tarixdə qəbul edilmişdir.

İş materiallarının 87-ci vərəqindəki poçt qəbzinə əsasən müəyyən olunur ki, qətnamənin surəti Cavabdeh imza etdirilməklə 19 oktyabr 2018-ci il tarixdə təqdim olunmuşdur.

Cavabdeh isə işdən göründüyü kimi kassasiya şikayətini 28 dekabr 2018-ci il tarixdə, yəni qətnaməni almasından 2 ay 9 gün keçdikdən sonra təqdim etmiş və bu zaman buraxılmış müddətin bərpa edilməsinə dair vəsatət verməmişdir.

MPM-nin 408.1.4-cü maddəsinə əsasən kassasiya şikayəti müəyyən edilmiş müddət ötürülməklə verilmişsə və buraxılmış müddətin bərpa edilməsinə dair vəsatət təmin olunmamışsa kassasiya şikayəti qaytarılır.

Göstərilənlərə əsasən hesab edirəm ki, kassasiya şikayəti icraata qəbul edilməməli və mülki iş kassasiya şikayəti ilə birlikdə şikayətin qaytarılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməlidir.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 408-ci maddəsini rəhbər tutaraq

**Q Ə R A R A  A L D İ M:**

Bakı Apellyasiya Məhkəməsi MK-nın 2(103)-10772/2018 saylı 26 sentyabr 2018-ci il tarixli qətnaməsindən Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti icraata qəbul edilməsin, kassasiya şikayəti geri qaytarılması üçün mülki işlə birlikdə Bakı Apellyasiya Məhkəməsinə qaytarılsın.